Ədəbiyyat qəzeti

# Söz üstündə şamtək yanıb əriyən şair...

## 70 ildir yol gələn Asim Yadigara yubiley təbriki

### Asim YADİGAR - 70



Hörmətli Asim müəllim!

Sizi - Əməkdar mədəniyyət işçisini, istedadlı şairi 70 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edirik.

Siz 1954-cü il yanvar ayının 5-də Naxçıvan Muxtar Respublikasının Şərur rayonunun Püsyan kəndində anadan olmusunuz. 1975-ci ildə Naxçıvan Dövlət Universitetinin Azərbaycan dili və ədəbiyyatı fakültəsini bitirib, 1975-82-ci illərdə Şərur rayonunun (indiki Kəngərli) Qıvraq kənd orta məktəbində müəllim, 1982-89-cu illərdə Azərbaycan Yazıçılar İttifaqının Naxçıvan Şöbəsində məsləhətçi vəzifəsində çalışmısınız.

1989-cu ildən 2007-ci ilədək Naxçıvan MR Dövlət Televiziya və Radio verilişləri Komitəsində redaktor, şöbə müdiri və baş redaktor vəzifələrində işləmisiniz. 2002-2003-cü illərdə "İki sahil" və "Şərq qapısı" qəzetlərində müxbir kimi fəaliyyət göstərmisiniz. 2003-cü ilin fevral ayının 1-dən yenə televiziyaya qayıdıb böyük redaktor, sonra isə baş redaktor vəzifələrində çalışmısınız.

Siz 2007-ci ilin yanvar ayının 23-də Naxçıvan Muxtar RespublikasıYazıçılar Birliyinin konfransında Yazıçılar Birliyinin sədri seçilmisiniz. Naxçıvan ədəbi mühitinin formalaşmasında bu gün də səmərəli fəaliyyət göstərirsiniz. Sizin təşəbbüsünüzlə son 17 ildə 19 ədəbi almanax hazırlanaraq oxuculara təqdim olunub.

Sizin əməyiniz dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. Siz Naxçıvan Muxtar Respublikasının Əməkdar mədəniyyət işçisi (2005), "Heydər Əliyev" xatirə qızıl medalı (2013), "Tərəqqi" medalı (2014), Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi (2019), "Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi (1918-2018)" yubiley medalı və Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Fəxri Fərmanı ilə təltif olunmusunuz (2014). 2009-cu ildə Prezident mükafatına layiq görülmüsünüz. 2014-cü ildə sizin 60 illik yubileyiniz C. Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında geniş qeyd olunub. Siz IV və V çağırış Naxçıvan MR Ali Məclisinin deputatı seçilmisiniz. Hal-hazırda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin VI çağırış deputatısınız. Dünya Azərbaycanlılarının III və IV qurultaylarında (2011, 2016), Türkdilli Ölkələrin Dövlət Başçılarının IX Zirvə Toplantısında (Naxçıvan, 3 oktyabr 2009), I Avropa Oyunlarının açılışında (2015) rəsmi nümayəndə kimi iştirak etmisiniz. Siz Azərbaycan Yazıçılar Birliyinin XII (2014) və XIII (2022) qurultaylarının nümayəndəsi olmusunuz. Həmin qurultaylarda Azərbaycan Yazıçılar Birliyinin İdarə Heyətinin və "Azərbaycan" jurnalının redaksiya heyətinin üzvü seçilmisiniz.

Siz bədii yaradıcılığa ötən əsrin 70-ci illərində başlamısınız. İndiyə kimi 16 kitabınız oxuculara təqdim olunub. "Şir və Çaqqal" mənzum pyesiniz Məhəmməd Tağı Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrında tamaşaya qoyulub. 4 cilddən ibarət "Seçilmiş əsərləri"nizin I və II cildi oxuculara təqdim edilib, III cild çapa hazırlanır. 30-dan artıq ədəbi almanaxda, 40-a yaxın qəzet və jurnalda şeirləriniz dərc olunub. Şeirləriniz rus, fransız, türk, fars dillərinə tərcümə olunub. Gənc şairlərin Ümumrespublika müşavirəsinin (Şüvəlan-1983), İran İslam Respublikasında keçirilən Rizəvi şeir festivallarının (Təbriz, Urmiya, Tehran, Məşhəd-2007, 2009) və Türkiyədə (Gümüşhanə, Bayburt-2011, 2012) şeir festivallarının, Şuşada keçirilən "Vaqif Poeziya Günləri"nin (2021, 2022) iştirakçısı olmusunuz. 3 mənzum, 3 nəsrlə yazılmış pyesin, 18 poemanın müəllifisiniz. Yaradıcılığınızla bağlı 40-a qədər məqalə mətbuatda dərc olunub. Qələm dostlarınızın yaradıcılığı barədə 80-dən artıq məqaləniz mətbuatda, kitablarda çap olunub. Sizin yaradıcılığınız haqqında görkəmli akademiklər, ədəbiyyatşünas alimlər, şair və yazıçılar (İsa Həbibbəyli, Nizami Cəfərov, Adil Bağırov, Mirzə İbrahimov, İsmayıl Şıxlı, Hüseyn İbrahimov, Nəriman Həsənzadə, Hüseyn Razi, Qəzənfər Paşayev, Vaqif Yusifli, Yavuz Axundov, Hüseyn Həşimli, Sevindik Vəliyev, Atif Zeynallı, Akif İmanlı, Sədaqət Həsənova, Nizami Məmmədov, Əliyar Yusifli, Həsənəli Eyvazlı, Əbülfəz Muxtaroğlu, Əbülfət Mədətoğlu, Akif Axundov, Əbülfəz Əzimli, Muxtar Qasımzadə, Vaqif Məmmədov, İbrahim Yusifoğlu, Xanəli Kərimli, Məmməd Tahir, Rafiq Babayev, Rafiq Oday, Fərəc Fərəcov, Seyfəddin Eyvazov, Elxan Yurdoğlu, Salatın Əhmədli, Muxtar Məmmədov, Ramiz Babayev, Ramiz Qasımov, Zülfiyyə İsmayıl, Ünbülbəni Musayeva, Günay Şirəliyeva və başqaları) geniş məqalələr yazaraq mətbuatda, kitablarda çap etdiriblər. Sizin həyat və yaradıcılığınız haqqında filologiya üzrə fəlsəfə doktoru Günay Şirəliyevanın "Asim Yadigarın yaradıcılıq yolu" adlı irihəcmli monoqrafiyası 2020-ci ildə oxuculara təqdim olunub.

Siz şeirlərlə yanaşı mətbuatda məqalələrlə də çıxışlar etmisiniz. 300-ə qədər məqaləniz müxtəlif qəzet və jurnallarda dərc olunub. Radio və televiziyada son 35 ildə 3000-dən artıq veriliş hazırlamısınız.

Hörmətli Asim müəllim!

Sizi 70 illik yubileyiniz münasibətilə ürəkdən təbrik edir, sizə uzun ömür, cansağlığı, səmərəli fəaliyyətinizdə, yaradıcılığınızda yeni-yeni uğurlar arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**